# Təxir kəffarəsi - 29 /Mar/ 2024

**Təxir kəffarəsi1**

**Məsələ 928. Əgər bir şəxs Ramazan ayında müəyyən bir şəri üzrə görə oruc tutmasa və Ramazan ayından sonra onun üzrü aradan qalxsa, amma buna baxmayaraq, o, orucun qəzasını tutmasa və gələn ilin Ramazan ayı gəlib çatsa, orucun qəzasından əlavə, hər gün üçün bir müdd təam fəqirə verməlidir.**

**Məsələ 929. Əgər bir şəxs Ramazan ayının orucunu bilərəkdən tutmasa və heç bir şəri üzrü olmadan orucun qəzasını da gələn Ramazan ayınadək tutmasa, orucun qəzası və orucu bilərəkdən iftar etməyin kəffarəsindən əlavə, hər gün üçün təxir kəffarəsi (yəni bir müdd təam) fəqirə verməlidir.**

**Məsələ 930. Təxir kəffarəsi bir müdd təamdır, yəni 750 qram buğda, un, çörək, düyü və bu kimi ərzaqlardır və fəqirə verilməlidir.**

**Məsələ 931. Əgər bir şəxs Ramazan ayının orucunun qəzasını bir neçə il təxirə salsa və tutmasa, orucun qəzasından əlavə təkcə bir müdd təam fəqirə verəcək və orucun qəzasını bir neçə il təxirə saldığına görə onun boynuna başqa bir kəffarə gəlmir.**

**Məsələ 932. Hər gün üçün bir müdd təam kəffarə verməli olan şəxs bir neçə günün kəffarəsini bir fəqirə verə bilər.**

**Məsələ 933. Əgər bir şəxs gələn ilin Ramazan ayınadək ötən ilin Ramazan ayının orucunun qəzasını tutmalı olduğunu bilməsə, təxir kəffarəsi onun boynundan götürülmür.**

---

**(1)Təxir kəffarəsi – Ramazan ayının qəza orucu gələn ilin Ramazan ayınadək yerinə yetirilmədiyi təqdirdə vacib olan kəffarədir.**